# AZƏRBAYCANIN QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONLARINDA YAŞIL ENERGETİKANIN İNKİŞAFI İMKANLARININ QİYMƏTLƏNDİRİLMƏSİ

**Fəxrəddin Kərimov, Rəhilə Əliyeva, Məhərrəm Mehtiyev**

*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Neft və Qaz İnstitutu, m_mehtiyev@mail.ru*

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatlarına görə, ölkədə 2019-cu ildə ümumilikdə 9,97 mln. neft ekvivalenti ton (NET), o cümlədən nəqliyyatda 2,27 mln. NET yanacaq istifadə olunubsa, 2020-ci müharibə ilində uyğun olaraq ümumi 9,92 mln., nəqliyyatda 2,3 mln. NET yanacaq istifadə edilmişdir. Yəni, ölkə üzrə yanacağın ümumi istehlakı 0,05 mln. NET azalmış, nəqliyyatda isə cəmi 0,03 mln. NET artmışdır. Bu, onunla izah olunur ki, dronlardan istifadə çoxlu yanacaq enerjisi sərf edən təyyarə, helikopter və zirehli texnikaya tələbatı azaltmışdır.

Azərbaycan öz sosial-iqtisadi inkişafının strateji məsələlərində ekoloji prinsipləri önə çəkərək insan fəaliyyətinin bütün sahələrində enerji səmərəliyi, alternativ və bərpa olunan enerji resurslardan istifadəyə üstünlük verir. Müharibənin nəticəsi olaraq Azərbaycan Respublikasının işğal olunmuş ərazisində yeni yaranmış "Qarabağ" və "Şərqi Zəngəzur" İqtisadi rayonların iqtisadiyyatının dirçəlməsi də Prezidentimiz tərəfindən 2021-ci ildə imzalanan "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" sərəncamı ilə uzlaşmalıdır. Bu sərəncam isə Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədinin tərkib hissəsidir.

Beləliklə, qeyd edilən iki sənədin icrası nəticəsində işğaldan azad olunmuş Şuşa şəhəri və bütün Qarabağ ərazisi "Yaşıl enerji" zonasına çevrilə bilər və çevrilməlidir. Bunun reallaşacağını Prezident İlham Əliyevin qətiyyətlə dediyi: "Qarabağ bölgəsi "yaşıl enerji" zonası kimi dünya üçün bir nümunə olacaq" fikri də təsdiq edir.

Məlum olduğu kimi, Qarabağın bərpaolunan enerji istehsalı üçün potensialı çox böyükdür. Tədqiqatlar göstərir ki, Qarabağın düzənlik hissəsi olan Füzuli, Cəbrayıl və Zəngilan rayonlarında bir $m^2$ səthə düşən günəş radiasiyası ildə 1600-1700 kVt/saat, dağlıq ərazinin 100 metr hündürlüyündə küləyin orta sürəti 7-10 m/san təşkil edir. Dövlətimizin başçısı Qarabağı və Şərqi Zəngəzuru yaşıl enerji zonası elan etdiyini xatırladaraq bildirmişdi ki, Azərbaycanın azad olunmuş ərazilərinin 7200 meqavat günəş enerjisi və 2000 meqavat külək enerjisi potensialı var.

Digər tərəfdən, iqlim dəyişmələri üzrə Paris Sazişindən irəli gələn öhdəliklərə töhfə olaraq Prezident İlham Əliyev 2030-cu ilə qədər elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrinin payının 30 %-ə çatdırılmasının hədəf kimi götürüldüyünü bildirib.

Həmin istiqamətdə genişmiqyaslı işlər nəzərdə tutulub və onlar ardıcıllıqla həyata keçirilir. Lakin alternativ və bərpaolunan resurslardan enerjinin istehsalı baha olduğundan bu sahədə işlər uzana bilər. Buna görə də "Yaşıl enerji" layihələrinə xarici investorları cəlb etmək bu işləri sürətləndirə bilər. Buna görə ölkəyə investorların cəlb edilməsi üçün müvafiq addımlar atılır. Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Yaponiyanın "Tepsco" şirkəti arasında müqavilənin imzalanması işlərin uğurla irəlilədiyinin daha bir təsdiqidir. Nazirliyin bu barədə məlumatında bildirilir ki, müqavilə işğaldan azad edilmiş ərazilərdə külək, günəş, hidroenerji, geotermal və bioenerji kimi bərpaolunan enerji potensialından istifadə, enerji-səmərəli texnologiya və müasir enerji-idarəetmə yanaşmaları əsasında "yaşıl enerji" zonasının yaradılması ilə əlaqədar müvafiq konsepsiyanın və baş planın hazırlanmasını nəzərdə tutur.

Dövlət başçısının "Qoyuluş gücü 230 MVt olan günəş elektrik stansiyasının tikintisi ilə bağlı pilot layihənin həyata keçirilməsi tədbirləri haqqında" sərəncamı Azərbaycanı "yaşıl enerji" məkanına çevirmək istiqamətində atılan növbəti mühüm addımdır. Qeyd edək ki, ölkəmizdə Səudiyyə

Ərəbistanı Krallığının "ACWA POWER" şirkəti ilə külək və Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti ilə günəş elektrik stansiyası tikiləcək.

Prezident İlham Əliyev BMT Baş Assambleyasının 76-cı sessiyasının illik ümumi müzakirələrində çıxış edərkən ölkədə bərpaolunan enerjinin inkişafına böyük diqqət göstərildiyini bir daha vurğulamışdır. Növbəti 3-4 il ərzində ümumi gücü 700 meqavat təşkil edəcək 3 külək və günəş elektrik stansiyalarının inşasına sərmayə qoyuluşuna dair üç böyük beynəlxalq enerji şirkəti ilə müqavilələr imzalanmışdır. Layihələrdən biri 44 günlük Vətən müharibəsi zamanı Ermənistanın işğalından azad edilmiş Şərqi Zəngəzur bölgəsində həyata keçiriləcək. Bu, 240 meqavat gücündə günəş elektrik stansiyası Azərbaycanın azad olunmuş ərazilərində ən böyük birbaşa xarici sərmayə qoyuluşu layihəsi olacaqdır.

Külək və günəş enerjisindən başqa, digər alternativ enerji mənbələrindən biri də ölkənin dağ çaylarıdır. Belə ki, Azərbaycanın işğaldan azad olunmuş Qarabağ - Şərqi Zəngəzur iqtisadi rayonlarında yerləşən Vulkanik yayla və Qarabağ silsiləsindən qidalanan onlarla irili-xırdalı çaylar vardır. Azərbaycan Respublikası Energetika Nazirliyinin məlumatına görə, dağ çaylarının potensialı 520 MVt həcmində qiymətləndirilir. Bu çaylarda kiçik və mikro su elektrik stansiyaları quraşdırmaq mümkündür.

Digər bərpaolunan enerji mənbələri Kəlbəcər və Şuşa ərazisində mövcud olan termal su ehtiyatlarıdır. Bütün bu mənbələr işğaldan azad olunmuş rayonlarda yeni enerji layihələrini həyata keçirməyə imkan verir. Bu gün dünyanın ən böyük enerji şirkətləri Azərbaycanda bərpaolunan enerji növlərinin istehsalına maraq göstərir. İşğaldan azad edilmiş ərazilərdə "yaşıl enerji" zonasının yaradılması məqsədilə bərpaolunan enerji mənbələrindən istifadə ilə bağlı özəl investisiyaların cəlb olunması üçün investorlarla müzakirələr aparılır.

Enerji məqsədi ilə istifadə olunan mənbələrdən biri də odundur. Enerji infrastrukturu olmayan uzaq dağ kəndlərində insanların sosial tələbatının ödənilməsi üçün odunun istifadəsi qaçılmazdır. Həm də ağac karbonu udduğu üçün onun tullantısı sıfır hesab olunur. Buna görə də həmin ərazilərdə meşə bərpası və yeni meşə massivlərinin salınması prioritet məsələdir. Azad olunmuş ərazilərdə meşələrin bərpası və yeni meşə sahələrinin yaradılması ilə bağlı layihələrin həyata keçirilməsi təbii meşələrin qorunmasına və inkişafına yardım etmiş olardı.

Bir sözlə, işğaldan azad olunmuş Şuşanı və ətraf əraziləri "yaşıl enerji" məkanına çevirmək üçün bütün mümkün imkanlardan səmərəli istifadə edilməlidir. Bu istiqamətdə görülən işlər ölkəmizin sosial-iqtisadi inkişafına xidmət edəcəkdir.

## SOYAD GÖSTƏRİCİSİ


| **Soyad** | |
|---|---|
| **Azərbaycanca** | |
| Abasova | 233 |
| Abbasov | 124, 308, 343 |
| Abbasova | 208, 322, 391 |
| Abbaszadə | 99 |
| Abdulbaqiyeva | 338 |
| Abdullayev | 157, 193, 234 |
| Abdullayeva | 37, 182, 221, 227, 303, 354 |
| Abışova | 221, 227 |
| Abiyev | 159 |
| Abuşova | 71 |
| Adıgözəlov | 214, 336 |
| Adıgözəlova | 116, 214 |
| Ağakişiyev | 233 |
| Ağamalıyeva | 280 |
| Ağayev | 198, 199, 200, 231, 330 |
| Ağayeva | 118, 397 |
| Ağbabalı | 143 |
| Albaliyeva | 280 |
| Allahverdiyev | 79, 198 |
| Allahverdiyeva | 219 |
| Aslanov | 334 |
| Aslanova | 114 |
| Atakişiyeva | 332 |
| Atayeva | 170, 175, 252 |
| Axundov | 79 |
| Axundova | 382, 388 |
| Babayev | 82, 133, 157, 289, 305 |
| Babayeva | 71, 72, 79, 309, 316 |
| Bağırlı | 164 |
| Bağırova | 170, 292 |
| Bahəddinov | 46 |
| Balaxanova | 42 |
| Bayramov | 100, 250, 262, 263 |
| Bayramova | 218 |
| Baxşəliyeva | 139 |
| Baxşiyev | 125 |
| Baxşiyeva | 50 |
| Bədəlova | 142 |
| Bədəl-zadə | 170 |
| Bəkirov | 324 |
| Cahangirov | 189 |
| Cavadzadə | 250, 262, 263 |
| Cəfərov | 386 |
| Cəfərova | 50, 332, 357 |
| Cəlilov | 54 |
| Çiğ | 61 |
| Dadaşova | 282, 332 |
| Dəmirova | 265 |

| | |
|---|---|
| Eminova | 357 |
| Eyvazov | 26, 84 |
| Əbdüləzimov | 342, 350 |
| Əhlimanova | 257 |
| Əhmədli | 298 |
| Əhmədov | 26 |
| Əhmədova | 201, 247, 248 |
| Ələkbərov | 95, 99 |
| Ələkbərova | 243, 307 |
| Ələsgərov | 208 |
| Ələsgərova | 139 |
| Əlibəyova | 384 |
| Əliyev | 27, 66, 79, 102, 132, 147, 221, 307, 357 |
| Əliyeva | 71, 84, 91, 142, 169, 170, 199, 203, 249, 255, 259, 400, 404 |
| Əmiraslanov | 382 |
| Ərəbzadə | 159 |
| Əsədova | 187, 210, 343 |
| Əsədullayev | 233, 329 |
| Əsgərov | 24, 36, 219 |
| Əsgərova | 283, 308 |
| Əskərov | 359 |
| Əşrəfova | 175, 252 |
| Əzimova | 359 |
| Əzizxanlı | 204 |
| Əzizov | 234 |
| Fərəcov | 234, 281 |
| Feyzullayev | 331 |
| Gözəlov | 348 |
| Gülməmmədova | 112 |
| Hacıyev | 317, 319 |
| Hacıyeva | 111, 160, 193, 198, 227, 293, 249, 330, 335, 342 |
| Heraçiyev | 149 |
| Heydərzadə | 143 |
| Həbilov | 149 |
| Həmidova | 382 |
| Həsənli | 262, 263 |
| Həsənov | 85, 332 |
| Həsənova | 128, 170, 213, 222, 247, 287, 288, 342, 354 |
| Hüseynli | 146, 273 |
| Hüseynov | 345 |
| Hüseynova | 99, 126, 168, 230, 256, 299, 314, 352, 382, 384, 388 |
| Hüseynzadə | 132 |
| Xairova | 402 |
| Xasayeva | 109 |
| Xudaverdiyeva | 108, 379 |
| Xudayev | 303 |
| İbayeva | 208 |
| İbrahimov | 87 |
| İbrahimova | 338, 340, 359, 362 |
| İsayeva | 71, 74, 124 |
| İsmayılov | 208, 276 |
| İsmayılova | 73, 131 |

| | |
|---|---|
| Kazımov | 296 |
| Kərimov | 404 |
| Kərimova | 75, 293 |
| Qafarbəyli | 325 |
| Qarayev | 169, 381 |
| Qarayeva | 46 |
| Qasımova | 58, 89, 91 |
| Qazi | 92 |
| Qaziyev | 175, 252 |
| Qədimova | 359 |
| Qədirova | 93 |
| Qəhrəmanov | 65, 255, 371, 374 |
| Qənbərova | 314, 326 |
| Qəniyeva | 332 |
| Qənizadə | 239 |
| Quliyev | 82, 100, 271, 336 |
| Quliyeva | 24, 60, 63, 79, 85, 248, 249, 273, 305, 334 |
| Qurbanov | 52, 291, 320 |
| Qurbanova | 307 |
| Mahmudov | 177 |
| Mehtiyev | 404 |
| Məcidli | 44 |
| Məcidova | 221 |
| Məhərrəmov | 104 |
| Məhərrəmova | 317 |
| Məmmədəliyeva | 143, 147 |
| Məmmədli | 73, 78, 281, 287 |
| Məmmədov | 46, 153, 239, 250, 262, 263, 285, 314, 322, 324, 334, 335, 343, 357, 371, 374 |
| Məmmədova | 55, 71, 81, 87, 142, 164, 171, 198, 222, 267, 280, 282, 300, 302, 310, 321, 398 |
| Məmmədyarova | 24 |
| Mənsurov | 243 |
| Mikayılova | 230 |
| Mircəlallı | 175, 252 |
| Mirzəyeva | 201 |
| Mirzəzadə | 241 |
| Mövsümova | 78 |
| Muxtarov | 305 |
| Muxtarova | 83 |
| Muradova | 40, 83 |
| Musayev | 166 |
| Musayeva | 82, 141, 299, 309 |
| Mustafabəyli | 65, 255 |
| Mustafayev | 382, 384, 388 |
| Mustafayeva | 118, 159 |
| Müslümova | 281 |
| Nəbiyev | 287, 313 |
| Nəbiyeva | 87, 124 |
| Nəcəfova | 270, 322, 323 |
| Nəsirova | 95 |
| Novruzlu | 193 |

| | |
|---|---|
| Novruzov | 173 |
| Nuruyeva | 109 |
| Orucova | 100, 274, 361 |
| Poladov | 335 |
| Poladova | 205 |
| Rəhimova | 247, 248, 269 |
| Rəsulova | 168, 212 |
| Rüstəmov | 267, 283 |
| Rüstəmova | 151, 153 |
| Rzayeva | 227, 228, 239, 282 |
| Sadıqov | 333 |
| Sadıqova | 301, 333 |
| Sadigov | 77 |
| Safquliyeva | 91 |
| Salahova | 101 |
| Seyfullayeva | 169 |
| Seyidəliyeva | 169 |
| Səfərov | 145 |
| Səlimov | 345 |
| Səmədova | 249 |
| Sərhədova | 337 |
| Soltanlı | 359 |
| Soluyanova | 198, 199 |
| Sultanov | 330 |
| Sultanova | 120, 308 |
| Süleymanov | 354 |
| Süleymanova | 248 |
| Şahverdiyeva | 81 |
| Şamilov | 234 |
| Şəfiyev | 239 |
| Şıxəliyeva | 209 |
| Şirəliyeva | 87 |
| Şükürov | 345 |
| Tağıyev | 75, 228, 315 |
| Tartaraşvili | 294 |
| Təlai | 340 |
| Təmrazov | 303 |
| Türksoy | 378, 390 |
| Verdiyev | 29, 273, 282 |
| Vəliyeva | 130, 151 |
| Yusibov | 397 |
| Zamanov | 338, 340 |
| Zamanova | 331 |
| Zeynalov | 23, 151, 153, 155, 159 |
| Zeynalova | 118, 139, 191, 235 |
| **İngiliscə** | |
| Abbasov | 28, 77 |
| Abdullayev | 28 |
| Agabalayev | 377 |
| Aghayeva | 224 |
| Ahadov | 22, 245, 311 |

| | |
|---|---|
| Akhundzada | 327 |
| Akparov | 28 |
| Alibeyli | 77 |
| Alieva | 347 |
| Alimammadzade | 122 |
| Alisoy | 311 |
| Aliyeva | 39, 216, 260 |
| Amrahov | 327 |
| Asgarova | 224 |
| Baghirova | 360 |
| Bahramzada | 176 |
| Barzegari | 373 |
| Buzovska | 206 |
| Chig | 61 |
| Dizaj | 366 |
| Duran | 224 |
| Eftekhari | 367, 378, 390 |
| Eyvazov | 33, 368 |
| Gadirova | 396 |
| Gerus | 206 |
| Gucel | 57 |
| Gulmammadova | 61 |
| Guluzade | 97, 278 |
| Gurbanova | 185 |
| Hafizov | 106 |
| Hajiyeva | 237 |
| Hasanov | 253 |
| Hasanova | 61 |
| Hosainzadegan | 378 |
| Humbatova | 162 |
| Huseynov | 33 |
| Huseynova | 20, 48, 184, 367, 377 |
| Ibadullayeva | 30, 395 |
| Ipek | 224 |
| Isgandarova | 186 |
| Iskenderov | 368 |
| Ismayilov | 253 |
| Ismayilova | 260 |
| Jafarova | 122 |
| Jumshudov | 318 |
| Kadirov | 22, 245 |
| Karimli | 22, 245 |
| Karimov | 179 |
| Kavetskyy | 390 |
| Kerimova | 68, 70 |
| Khalilov | 366, 367, 373, 378, 390 |
| Khankishiyeva | 327 |
| Khidirova | 215 |
| Kovalova | 206 |
| Lee | 195 |
| Liashenko | 206 |
| Mamedov | 237 |

| | |
|---|---|
| Mammad | 360 |
| Mammadov | 34, 196, 224, 369, 393 |
| Mammadova | 123, 266, 311, 393 |
| Mammedova | 48 |
| Manafov | 33 |
| Mandych | 137 |
| Mekhtiev | 376 |
| Melnik | 206 |
| Mirzayeva | 226 |
| Mirzeliyeva | 185 |
| Mukhtarov | 179 |
| Muljukina | 206 |
| Muradova | 39 |
| Musayev | 215 |
| Musazade | 97, 278 |
| Mustafayev | 376, 395 |
| Nesibova | 378 |
| Novruzov | 327 |
| Nuriyeva | 48 |
| Pashayeva | 195 |
| Pkhakadze | 68 |
| Popova | 206 |
| Rahimov | 377 |
| Rajabova | 179 |
| Rashidova | 364 |
| Rustamov | 28, 162 |
| Rustamova | 183 |
| Rzayev | 33 |
| Sadigova | 122 |
| Salii | 206 |
| Samofalov | 135 |
| Shahverdiyeva | 48 |
| Sharifi | 366, 373 |
| Shokhin | 48 |
| Suleymanov | 184, 216 |
| Suleymanova | 39 |
| Sultanov | 162 |
| Utevsky | 33 |
| Vahed | 366, 373 |
| Verdiyev | 29, 273, 282 |
| Yıldırım | 57 |
| Yusifov | 30, 34, 393 |
| Zamanov | 369 |
| Zelenianska | 135, 137 |
| Zulfugarov | 195 |
| Wu | 195 |